# MÜSTƏQİLLİK İLLƏRİNDƏ ELM VƏ TƏHSİLİN YENİ PRİNSİPLƏR ƏSASINDA İNKİŞAFI VƏ HEYDƏR ƏLİYEV İRSİ

***(Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunur)***

**İradə Nuriyeva**
0000-0002-5309-0009, *Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin “Humanitar fənlər” kafedrasının professoru, siyasi elmlər doktoru*
*iradanuri@gmail.com*

## THE DEVELOPMENT OF SCIENCE AND EDUCATION BASED ON NEW PRINCIPLES IN THE YEARS OF INDEPENDENCE AND HEIDAR ALIYEV'S LEGACY

**(Dedicated to the 100th anniversary of Great Leader Heydar Aliyev)**

**Irade Nuriyeva**

**Summary**

The article "Development of science and education on new principles during the years of independence and the legacy of Heydar Aliyev" noted that after the restoration of independence, science, education, health, sports, culture, tourism, environmental protection and other areas have always been in the center of attention of the Azerbaijani state under the leadership of the Great Leader Heydar Aliyev. During the second leadership of the republic, Heydar Aliyev began to implement the national education concept for managing education based on new principles, integrating it into the world education system and improving it by adapting it to international standards. The policy of the Great Leader Heydar Aliyev on the development of science, education and other spheres is successfully continued by the President of the Republic Ilham Aliy

**Key words:** Great Leader Heydar Aliyev, science, concept of national education, new principles.

## MÜSTƏQİLLİK İLLƏRİNDƏ ELM VƏ TƏHSİLİN YENİ PRİNSİPLƏR ƏSASINDA İNKİŞAFI VƏ HEYDƏR ƏLİYEV İRSİ

**İradə Nuriyeva**

**Xülasə**

Müstəqillik bərpa edildikdən sonra Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə elm, təhsil, səhiyyə, idman, mədəniyyət, turizm, ətraf mühitin mühafizəsi problemləri və digər sahələr Azərbaycan dövlətin daim diqqət mərkəzində idi. Respublikaya ikinci rəhbərliyi dövründə Heydər Əliyev təhsilin yeni prinsiplər əsasında idarə edilməsi, beynəlxalq standartlara uyğunlaşdırılaraq dünya təhsil sisteminə inteqrasiyası və təkmilləşdirilməsi üçün milli təhsil konsepsiyasını həyata keçirməyə başladı. Ulu Öndər Heydər Əliyevin elm, təhsil və digər sahələrin inkişafına dair apardığı siyasət Respublika Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdi

**Açar sözlər:** Ulu Öndər Heydər Əliyev, elm, milli təhsil konsepsiyası, yeni prinsiplər.

## РАЗВИТИЕ НАУКИ И ОБРАЗОВАНИЯ НА ОСНОВЕ НОВЫХ ПРИНЦИПОВ В ГОДЫ НЕЗАВИСИМОСТИ И НАСЛЕДИЕ ГЕЙДАРА АЛИЕВА

**(Посвящается 100-летию Великого лидера Гейдара Алиева)**

**Ирада Нуриева**

**Аннотация**

В статье «Развитие науки и образования на новых принципах в годы независимости и наследия Гейдара Алиева» отмечалось, что после восстановления независимости наука, образование, здравоохранение, спорт, культура, туризм, проблемы охраны окружающей среды и другие сферы всегда были в центре внимания Азербайджанского государства под руководством Великого Лидера Гейдара

Алиева. Во время второго руководства республикой Гейдар Алиев приступил к реализации национальной концепции образования по управлению образованием на новых принципах, интеграции его в мировую систему образования и совершенствованию путем адаптации к международным стандартам. Политику Великого лидера Гейдара Алиева по развитию науки, образования и других сфер успешно продолжает Президент Республики Ильхам Алиев.

**Ключевые слова:** Великий Лидер Гейдар Алиев, наука, концепция национального образования, новые принципы.

**Giriş.** Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının mədəni və mənəvi həyatında mühüm dəyişikliklər baş vermişdir. Müstəqil Azərbaycan Respublikası təhsilin yeni prinsiplər əsasında idarə edilməsi, beynəlxalq standartlara uyğunlaşdırılaraq dünya təhsil sisteminə inteqrasiyası və təkmilləşdirilməsi üçün milli təhsil konsepsiyasını həyata keçirməyə başladı.

**Heydər Əliyevin təhsil sahəsində apardığı islahatlar**

Prezident Heydər Əliyevin sərəncamı ilə 1998-ci il mart ayının 30-da Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası təşkil olundu, Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramı hazırlandı və 1999-cu il iyunun 15-də Prezident tərəfindən təsdiq edildi [20]. Ulu Öndər Heydər Əliyevin “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” 13 iyun 2000-ci il tarixli Fərmanı ölkədə ali təhsilin təşkili və inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoydu. Təhsil Problemləri üzrə Respublika Elmi-Metodik Mərkəzi ilə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji İnstitutu bazasında Təhsil Problemləri İnstitutu, təsərrüfathesabı Təhsil Texnologiyaları Mərkəzi təşkil olundu [16]. Sovet təhsil sisteminin müsbət ənənələri üzərində müasir Avropa texnologiyasına əsaslanan məktəb sistemi qurulmağa başlandı. 40-dan çox xarici ölkənin təhsil sistemi, təlim texnologiyaları, idarəetmə modelləri öyrənildi və Respublika təhsil sistemi dünya təcrübəsinə uyğun təkmilləşdirilməyə başlandı [17].

Ulu Öndər Heydər Əliyev milli tariximizin yenidən, obyektiv yazılmasına və tədrisinə xüsusi diqqət yetirirdi: ümumtəhsil məktəbləri üçün yeni “Azərbaycan tarixi”, “Ədəbiyyat”, “Azərbaycan dili”, “Coğrafiya” və digər bir çox dərslik çap olundu. Ali məktəb tələbələri üçün ilk dəfə olaraq “Azərbaycan tarixi” dərslikləri tərtib olundu. Yeni tədris proqramlarının və dərsliklərin hazırlanması, 1992-ci ildən ali və orta ixtisas məktəblərində buraxılış və qəbul imtahanlarının test üsulu ilə aparılması, tələbə qəbulu üzrə dövlət komissiyasının işinin təkmilləşdirilməsi və s. tədbirlər təhsil islahatı proqramının tərkib hissələri idi. Ümumtəhsil məktəbləri sistemində lisey və gimnaziyalar: “Atatürk” liseyi, “Bakı Türk liseyi”, T.Ozal adına Bakı və Sumqayıt Türk liseyləri və filialları yaradıldı. Azərbaycanda ilk Bakı özəl ümumtəhsil kompleksi 2001-ci ilin sentyabr ayında fəaliyyətə başladı [12]. Respublikada 38 internat məktəbi, o cümlədən 1998-ci ildə C.Naxçıvanski adına Respublika Orta Hərbi İnternat Məktəbinin Naxçıvan filialı təsis edildi. 1993-cü ildən ali məktəblərdə (incəsənət, mədəniyyət, tibb və idman ixtisasları üzrə məktəblərdən başqa) iki – bakalavr və magistr pilləli təhsilə keçildi. Magistraturalara ilk qəbul imtahanları 1997-ci ildə keçirilməyə başlandı [8]. Azərbaycan Respublikası Prezidentinin 23 may 1992-ci il tarixli 782 saylı Fərmanı və Nazirlər Kabinetinin 9 iyun 1992-ci il tarixli 321 saylı Qərarına əsasən Bakı Xüsusi Orta Milis Məktəbi zəminində Polis Akademiyası yaradıldı [22]. 1999-cu ildə Sosial İdarəetmə və Politologiya İnstitutu bazasında Respublika Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, 1998-ci ildə isə Milli Təhlükəsizlik Nazirliyinin Akademiyası təsis edildi [9]. Mülki Təyyarəçilik Akademiyası və bir sıra ali təhsil məktəbləri fəaliyyət göstərirdi. 2001-ci ilin sentyabrında Prezident Heydər Əliyev ali məktəbi əlaçı bitirən tələbələrə Prezident təqaüdü təsis etdi. Özəl təhsil müəssisələri – “Qərb”, “Biznes”, “Asiya”, “Xəzər”, “Təfəkkür”, “Azərbaycan”, “Qafqaz”, “Odlar Yurdu”, “Beynəlxalq Universitet” və s. meydana gəldi. Ümumilikdə, respublikanın şəhərlərində, hətta qəsəbələrində 121 özəl ali məktəb təşkil olundu. Onlardan ancaq 18-in dövlət lisenziyası var idi [13; 20, s. 7].

**Heydər Əliyev və elmin strateji inkişafı**

Heydər Əliyev respublikaya rəhbərliyə qayıdandan sonra elm sahəsinin inkişafı üçün bir sıra tədbirlər görüldü. “Elmin strateji inkişafı və Azərbaycan Milli Elmlər Akademiyasında islahatların konsepsiyası” hazırlandı [4, s. 214]. Respublika Prezidentinin “Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təsis edilməsi haqqında” 7 avqust 2002-ci il tarixli Sərəncamına əsasən 500-dən çox əməkdaşı birləşdirən AMEA-nın Naxçıvan Bölməsi yaradıldı. 1992-ci il aprel ayının 23-də Azərbaycan Ali Attestasiya Komissiyası (1994-cü ildən Azərbaycan Prezidenti yanında Azərbaycan Ali Attestasiya Komissiyası) təsis edildi [5]. Amerika mesenatı Corc Sorosun yaratdığı “Soros” Fondunun İnformasiya Mərkəzi 1996-cı ildə Bakıda fəaliyyətə başladı. Bu fond Respublika Elmlər Akademiyasının İNTERNET ilə əlaqə yaratmasına kömək etdi, elmin inkişafı üçün 93 qrant ayırdı [11]. 2002-ci ildə “Naxçıvan Ensiklopediyası” çap edildi. Tarix İnstitutunda “Azərbaycanın tarixi coğrafiyası”, “Müstəqil Azərbaycan Respublikasının tarixi”, “Dağlıq Qarabağın tarixi”, “Azərbaycan Xalq Cümhuriyyətinin tarixi” və digər şöbələr təşkil olundu. 1997-ci ildə Azərbaycan EA Rəyasət Heyəti nəzdində yaradılmış “Azərbaycan tarixi” Baş Redaksiya Şurasının rəhbərliyi altında 7 cildlik “Azərbaycan tarixi” hazırlanıb nəşr olundu [1, s. 428].

**Heydər Əliyev və azərbaycançılıq məfkurəsi**

Azərbaycan Respublikasında dövlət müstəqilliyinin bərqərar olması, iqtisadi-siyasi sabitliyin və beynəlxalq əlaqələrin genişlənməsi, hökumət tərəfindən ardıcıl olaraq xalqın rifahı üçün həyata keçirilən bir sıra dövlət əhəmiyyətli tədbirlər azərbaycançılıq məfkurəsinin inkişafı üçün zəmin yaratmışdır. Xalqımızın səciyyəvi milli-mənəvi dəyərlərini inkişaf etdirmək, gənc nəsli vətənpərvərlik, öz xalqı, dili, dini, zəngin mədəni irsi, müstəqillik uğrunda keçdiyi mübariz tarixi yol üçün milli qürur və humanizm kimi dəyərlər ruhunda tərbiyə etmək ideoloji fəaliyyətin əsas istiqamətlərindən biri idi. Ümummilli Lider Heydər Əliyev 2001-ci il iyun ayının 18-də “Dövlət dilinin tətbiqinin təkmilləşdirilməsi haqqında” Fərman verdi. Dövlət başçısı yanında “Dövlət Dil Komissiyası” yaradıldı [18]. 2002-ci il sentyabr ayının 30-da “Azərbaycan Respublikasında dövlət dili haqqında” Qanun qəbul edildi. 1991-ci ilin dekabrın 24-də latın qrafikalı Azərbaycan əlifbasının bərpa olunması haqqında Qanun qəbul edildi. 2001-ci il 18 iyun tarixli Fərmanla avqustun 1-dən etibarən Azərbaycanda latın əlifbasına keçilməsi, mətbuatın, təhsilin, rəsmi yazışmaların və çıxışların ana dilində olması barədə tədbirlər həyata keçirilməyə başlandı. Prezident 2001-ci il avqustun 9-da “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” Fərman imzaladı.

. Prezident Heydər Əliyevin 2001-ci il mayın 23-də Dünya azərbaycanlılarının təşkilatlanması yolunda imzaladığı Sərəncama müvafiq olaraq 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının (37 ölkənin 560-dan çox nümayəndəsi) I Qurultayı keçirildi. Hər ilin 31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəylik günü elan olundu. 1992-ci ilin ortalarında “Türkdilli Ölkələrin Mədəniyyət Nazirləri Daimi Konseyni”, 1993-cü ilin əvvəllərində isə onun icra qurumu olan TÜRKSOY (Türk Kültür və Sanatları Ortak Yönətimi) fəaliyyətə başladı [10]. 2001-ci ilin mart ayında Prezident Heydər Əliyevin Fərmanı ilə “Azərbaycan Atatürk Mərkəzi” yaradıldı [21]. 2000-ci ilin aprel ayında Bakıda Azərbaycan xalqı yolunda şəhid olmuş türk əsgərlərinin şərəfinə ucaldılmış abidənin açılışı oldu [19, s. 111]. 1997-ci ilin aprel ayında Prezident Heydər Əliyev Azərbaycan xalqının möhtəşəm ədəbi-tarixi abidəsi olan “Kitabi-Dədə Qorqud” dastanının 1300 illiyinin geniş qeyd edilməsi haqqında Fərman verdi [15].

**Təhsil sahəsi Azərbaycan intibahının yeni mərhələsində**

Ulu Öndər Heydər Əliyevin elm, təhsil və digər sahələrin inkişafına dair apardığı siyasət Respublika Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət büdcəsindən təhsil sahəsinə ayrılan vəsaitlər 2005-ci ildən 3 dəfədən çox artmışdır [14, s. 563]. Hal-hazırda Respublikada ali məktəblərdə 120 mindən çox tələbə, o cümlədən, 30-dan çox xarici ölkənin 2-3 mindən çox vətəndaşı təhsil alır. Xaricdə də ali təhsil almağa şərait yaradılmışdır. 2007-ci ilin

aprelin 16-da qəbul edilmiş Dövlət Proqramına uyğun olaraq minlərlə Azərbaycan gənci ABŞ-a, Avropa və Asiyanın ən inkişaf etmiş ölkələrinə ali təhsil almaq üçün göndərilmişdir [3, s. 368]. Prezident İlham Əliyevin “Ümumtəhsil məktəblərinin İlham Əliyevin “Azərbaycan Respublikasının milli Ensiklopediyasının nəşri haqqında” və “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 2004-cü il 12 yanvar tarixli sərəncamlarına əsasən çoxlu bədii əsərlər nəşr olmuşdur. 2009-cu ilin iyun ayında Milli Məclis tərəfindən “Təhsil haqqında” Qanun qəbul olundu. Avropada vahid ali təhsil sisteminə inteqrasiya məqsədilə Boloniya prosesinə 2005-ci ildə qoşuldu. Təhsil Nazirliyi tərəfindən 2014-cü ildən ali təhsil sahəsində həyata keçiriləcək islahatların əsas prioritetləri sırasında SABAH (savadlı, bacarıqlı, hazırlıqlı) qruplarının təşkili, ali təhsil müəssisələrinin fəaliyyətinin effektivliyinin təmin olunması, tələbə qəbulunun təkmilləşdirilməsi, dövlət sifarişində iştirak edəcək universitetlərin seçim meyarlarının hazırlanması, ölkə iqtisadiyyatının inkişaf səviyyəsinə cavab verən müasir kadr hazırlığının təmin edilməsi, habelə ali təhsil proqramlarının (standartlarının) Avropa məkanında tətbiq olunan müvafiq sənədlərə uyğunlaşdırılması məqsədilə tədris proqramlarına (standartlarına) yenidən baxılması, Bolonya prosesinin tətbiqi üzrə univesitetlərarası komitənin yaradılması, abituriyentlərin peşəyönümlü ixtisas seçimi mexanizminin formalaşdırılması, orta məktəblərin, ilk peşə və orta ixtisas təhsili müəssisələrinin müvafiq ali təhsil müəssisələrinə təhkim edilməsi, aztəminatlı gənclərin ali təhsil almaq imkanlarının artırılması üçün pilot qaydasında təhsil kreditlərinin tətbiqinə başlanılması, ali təhsil müəssisələrinin fəaliyyətini tənzimləyən normativ bazanın təkmilləşdirilməsi və korporativ idarəetmə prinsiplərinin tətbiqi, dövlət ali təhsil müəssisələrində maliyyə hesabatlılığı sisteminin tətbiqinin genişləndirilməsi, ali təhsil müəssisələrinin akkreditasiya sisteminin yaradılması kimi məsələlər əsas yer tutur [14, s.565].

**Nəticə:**Bu gün təhsil sahəsində aparılan davamlı islahatlar əmin olmağa əsas verir ki, müasir Azərbaycan təhsili özünün zəngin və mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq bundan sonra da inkişaf edəcək. Dünya standartları səviyyəsində təhsil almış milli kadrların sayının artması, dövlətimizin müxtəlif inzibati, sənaye və iqtisadi sahələrində yerləşdirilməsində milli maraqlarımıza cavab verən amillərdir. Ulu Öndər Heydər Əliyevin və onun davamçısı Respublika Prezidenti İlham Əliyevin düşünülmüş və uzaqgörən siyasəti elmin və təhsilin inkişafına güclü təkan veribdir. Müasir dövrdə əsas reallıq dövətlərin inkişafında təkcə təbii sərvətlər deyil, həm də bu resurslardan elmi baxımdan istifadə edərək yüksək potensiala malik insan kapitalına  çevirmək və bilik iqtisadiyatını formalaşdırmaqdır.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1. Azərbaycan tarixi. 7 cilddə, VII c. (1941-2002-ci illər). 608 s.+80 s. illüstrasiya. Bakı: “Elm” (2008)
2. Azərbaycan tarixi. Məmmədov İ., Məmmədov Ç. 336 s. Bakı: “Adiloğlu” (2010)
3. Azərbaycan tarixi: Dərslik. 380 s. Bakı: “Bakı Universiteti” (2014)
4. Azərbaycan Respublikası 1991-2001. 358 s. Bakı: “XXI-Yeninəşrlər Evi” (2001)
5. Nuriyeva İradə Tofiq qızı. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Texniki Ali məktəblər üçün dərslik. 744 səh. Bakı: Elm və təhsil (2022)
6. “Respublika” qəzeti, 22 aprel 1997-ci il
7. Süleymanov M. Azərbaycanda türk şəhidlikləri. 172 s. Bakı: “Hərbi nəşriyyat” (2000)
8. “Təhsil” qəzeti, xüsusi buraxılış, 2000, № 1, səh. 2